**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ
İNCƏSƏNƏT UNİVERSİTETİ**

# TÜRKSOYLU XALQLARIN MUSİQİ MƏDƏNİYYƏTİNİN TƏDQİQİ PROBLEMLƏRİ

## XVII BEYNƏLXALQ ELMİ – PRAKTİKİ KONFRANSIN MATERİALLARI

***Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunur***

*Konfrans Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13.02.2017 – ci il tarixli 17/17/138-11 saylı razılıq məktubuna əsasən Azərbaycan Respublikası Təhsil Nazirinin 17.03.2017 – ci il tarixli 160 saylı əmrilə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində keçirilmişdir.*

**Bakı – 2018**

**Elçin Qafarlı**
*·Türkiyə, TÜRKSOY, ADMİU-nun doktorantı*

# "KOROĞLU" OPERASI TÜRKSOYLU XALQLARIN ORTAQ MƏDƏNİYYƏTİNİN TƏCƏSSÜMÜ KİMİ

Türksoylu xalqların milli dirçəlişi, inkişafı, öz tarixi köklərini və mədəni zənginliklərini dərk etmələri, dərindən öyrənmələri və bunları dünyada təbliğ etmələri çox vacib nəticələr əldə edilməsinə vəsilə olur. Bunları nəzərə alaraq, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı TÜRKSOY türksoylu xalqların zəngin mədəni irsinin qorunması və inkişafı sahəsində son illərdə müxtəlif beynəlxalq layihələr həyata keçirmişdir. Bu mühüm layihələrin başında Beynəlxalq Koroğlu Operası layihəsidir.

Ümumtürk mədəniyyətinin tanıdılması, ortaq dəyərlərimizin yeni nəsillər tərəfindən öyrənilməsi, mənimsənilməsi və tariximizə sahiblənməsi istiqamətində atılan bu addımlar türksoylu xalqların kimliyinin və gələcəyinin qorunmasına xidmət edir.

Azərbaycan peşəkar musiqi sənətinin banisi Üzeyir Hacıbəylinin "Koroğlu" operası, onun xalq ədəbiyyatını və musiqisini klassik qərb janrında üzvi şəkildə birləşdirməsinin ən bariz nümunəsidir.

Bu əsərin seçilməsində əsas məqsəd, əsərin ideya mənasının TÜRKSOY-un fəaliyyətinin ana xətti ilə üst üstə düşməsindədir. Belə ki,Türksoylu xalqların bir birilərini daha yaxşı tanımaları, müştərək mədəni irslərinin vasitəsilə qarşılıqlı bəhrələnmələri təmin etməyə yönəlirdi.

TÜRKSOY-a üzv olan ölkələrin mədəniyyət xadimləri olan teatrlarından quruluşçu rejissor Əflatun Nemətzadənin, tərtibatçı rəssam Savaş Camgözün, Sərdar Başbuğun və xoreoqraf Mehmet Balkanın (Türkiyə), Azərbaycandan dirijor Rauf Abdullayevin böyük əməyi ilə ərsəyə gələn "Koroğlu" operası, 250 opera və balet sənətçisindən ibarət beynəlxalq kollektivin ilk tamaşası 2009-cu ilin 8-9 sentyabr tarixində Bişkekdə sənətsevərlərin qarşısına çıxdı.

Türk dünyasının dahi bəstəkarı Üzeyir Hacıbəylinin "Koroğlu" operasında əsərin mövzusu Koroğlu dastanının Azərbaycan versiyasını əhatə etsə də, bu layihə ilə Koroğlu dastanının ümumtürkmədəni abidəsi olaraq təqdim edilirdi.

Bəhs etdiyimiz "Koroğlu" operasınınbeynəlxalq tərkibdə təqdimatının başlıca dəyəri ondan ibarət idi ki, türksoylu xalqların ortaq mədəni irsi olan Koroğlu dastanı qardaş xalqların sənətçilərinin iştirakı ilə birgə həyata keçirildi və dünya opera tarixində ilk dəfə olaraq həmin tamaşa beynəlxalq tərkibdə, Türkiyə türkcəsində səsləndirildi.

РЕЗЮМЕ

Доклад посвящен анализу постановки оперы Узеира Гаджибейли «Кероглу», осуществленной в рамках международного проекта организации ТЮРКСОЙ. Отмечается, что в спектакле приняли участие мастера оперного и балетного искусства различных тюркоязычных республик. Акцентируется мысль о том, реализация данного проекта важна с точки зрения сближения культурных ценностей тюркских народов.

SUMMARY

The report is devoted to the analysis of the production of the opera "Keroglu" by Uzeyir Hajibeyli, carried out within the framework of the international project of TURKSOY. It is noted that the master of opera and ballet art of various Turkic-speaking republics took part in the play. The idea is stressed that the implementation of this project is important from the point of view of convergence of the cultural values of the Turkic peoples.